# Aqroparklar kənd təsərrüfatının müasir inkişafına stimul verir

**Aqroparklar və iri fermer təsərrüfatları müasir dövrdə kənd təsərrüfatını inkişaf etdirməyin ən səmərəli və mütərəqqi mexanizmləridir. 2014-cü ildən etibarən təşkil edilən, dövlət başçısının müvafiq fərmanıyla yaradılan aqroparklar və iri fermer təsərrüfatları artıq ölkənin bütün bölgələrini əhatə etməkdədir.**

Hazırda respublikamızda 32 rayon üzrə 240 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılır. Onların xeyli hissəsi (44 ədədi) artıq fəaliyyətdədir və özünü doğruldub.







Belə təsərrüfatlardan biri də "Ağsu Aqropark"dır. Regiona səfəri çərçivəsində Aqroparkın fəaliyyəti ilə tanış olarkən Azərbaycan Prezidenti İlham Əliyevə məlumat verilib ki, müəssisənin əsas fəaliyyət istiqamətlərindən biri heyvandarlıqdır. Burada ümumilikdə 2200 baş iribuynuzlu südlük və ətlik heyvan bəslənilir. Onlardan il ərzində 4 milyon litr süd sağılır.

Məlumat üçün bildirək ki, "Ağsu Aqropark" 2018-ci ildə heyvandarlıq və əkinçilik sahəsi üzrə fəaliyyətə başlayıb. Ümumi ərazisi 1843 hektar olmaqla layihə dəyəri 18 milyon manatdır. Təsərrüfatın tikinti sahəsi isə 10 hektar təşkil edir. Yerli əhalinin məşğulluq təminatında əhəmiyyətli rol oynayır. Belə ki, hazırda burada 200 nəfər daimi işlə təmin olunub, 240-250 nəfər isə mövsümi işlərdə çalışır.

Dövlətin aqroparklara dəstək siyasəti belədir ki, onlar çox da münbit olan sahələri zəbt etmirlər, əvvəlcə nisbətən az məhsuldar olan sahələrdə yerləşdirilir, qalan ərazilər isə sonradan münbitləşdirilir. "Ağsu Aqropark" yaradılarkən də bu siyasət əsas götürülüb. Burada torpağın münbitliyini artırmaq məqsədilə orqanik və mineral gübrələrdən istifadə olunur. 1600 hektardan artıq torpağın üst qatında lazer səviyyələndirmə texnikası ilə hamarlama işləri aparılıb, dren kanallar çəkilərək şoranlıq problemi həll olunub. Bu ərazilərdə yüksək məhsuldarlıqlı arpa, buğda, qarğıdalı, noxud, yonca əkilib.

Əkinlərin vaxtında və keyfiyyətlə suvarılması da diqqət mərkəzindədir. Yuxarı Şirvan kanalının suyundan səmərəli istifadə etmək məqsədilə əraziyə uzunluğu 22 kilometr olan su xətti çəkilib, 5 nasosxana və 6 ədəd artezian quyusu istifadəyə verilib. Başqa sözlə, 600 hektar sahədə yüksək standartlara cavab verən pilot suvarma sistemləri qurulub. Əkinçilikdə növbəlilik sistemi tətbiq olunub.

Müəssisədə 16 min ton tutumu olan beton silos quyuları, 13 min 500 kubmetr həcmə malik taxılsaxlama anbarları mövcuddur. Saatda 5 ton yem istehsal edən zavod tikilib (avadanlıqlar Türkiyədən gətirilib).

Qeyd edək ki, təkcə "Ağsu Aqropark" deyil, bütövlükdə ölkədə bu cür modern tipli təsərrüfat və müəssisələrin hamısı dövlətin dəstəyinə əsaslanır. İndiyədək dövlət aqroparklara bütövlükdə 1,3 milyard manat özəl investisiya qoyub, 26 aqroparka texnika, texnoloji avadanlıqlar və qurğular idxalına görə 43,7 milyon manat dəyərində güzəştlər verilib. Belə müəssisələr dövlətdən 184,2 milyon manat güzəştli kredit alıblar.

Kənd təsərrüfatının inkişafına önəm, ərzaq təhlükəsizliyi ilə bağlı ölkədə həyata keçirilən tədbirlərə, atılan qabaqlayıcı addımlara dövlət başçısı İlham Əliyevin avqustun 12-də İsmayıllının Basqal qəsəbəsində Azərbaycan televiziyasına verdiyi müsahibəsində də geniş yer ayrılıb.

Dövlət başçısı dünyada ərzaq mallarının bahalaşmasının, inflyasiyanın artan göstəricilərinin Azərbaycana da mənfi təsir etdiyini bildirib: **"Ərzaq mallarının qiymətinin qalxması da Azərbaycana bir növ, - əgər belə demək mümkünsə, - idxal olunub. Çünki biz hələ də özümüzü tam, yəni 100 faiz əsas ərzaq məhsulları ilə təmin edə bilmirik".**

Müsahibədə dövlət başçısı aqrar sahədə son illər ərzində əldə olunan uğurlara da diqqət çəkib. Deyib ki, bu gün biz özümüzü ət məhsulları ilə 90, quş əti ilə 80, süd və süd məhsulları ilə 85 faiz təmin edirik.

Prezident ərzaqlıq buğda istehsalından danışarkən qeyd edib ki, buğda ilə təminat səviyyəsi ilin əvvəlinə bizdə 62 faiz idi: **"Məhz bu məqsədlə xüsusi proqram işlənib hazırlandı, yeni növ subsidiyaların tətbiq edilməsinə start verildi və bunun nəticəsində əminəm ki, ərzaqlıq buğdanın Azərbaycanda istehsalı kəskin artacaq. Ancaq bu, vaxt tələb edəcək".**

Dövlət başçısı mövzunu nikbin notla yekunlaşdırıb ki, təqribən 3-4 il ərzində biz özümüzü ərzaqlıq buğda ilə 80 faiz səviyyəsində təmin edəcəyik.

**N.ƏHMƏDOĞLU,**
**"Respublika".**

Respublika.- 2022.- 14 avqust.- S.6.